UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.3.168

RÜFƏT AXUNDZADƏ*

# TROMPET ALƏTİNİN İNKİŞAF TARİXİ VƏ BƏSTƏKAR YARADICILIĞINDA İSTİFADƏSİNƏ DAİR

*Məqalədə nəfəs musiqi alətləri arasında xüsusi yer tutan truba (trompet) alətinin tarixi inkişaf mərhələləri, texniki imkanları və musiqi mədəniyyətindəki funksional rolu araşdırılır. Trubanın qədim dövrlərdən siqnal aləti kimi istifadə olunması, klapan mexanizminin icadından sonra isə xromatik səslənmə imkanı ilə klassik musiqidə əhəmiyyətli yer tutması qeyd olunur. Azərbaycan musiqi mədəniyyətində trubanın inkişafı, bu alət üçün yazılmış orijinal əsərlər, köçürmələr və bəstəkar yaradıcılığı kontekstində təhlil olunur. Musa Mirzəyev, Əziz Əzizli və Tofiq Bakıxanov kimi bəstəkarların bu alətə həsr olunmuş əsərləri nümunə göstərilərək trubanın həm texniki, həm də tembr imkanlarının zənginliyi vurğulanır. Məqalə truba alətinin musiqi sənətindəki əhəmiyyətini, onun tədris və yaradıcılıq sahəsindəki rolu ilə birgə təqdim edir və bu istiqamətdə yaranan irsin gələcək nəsillərə ötürülməsinin vacibliyini göstərir.*

***Açar sözlər:*** *Trompet, musiqi, bəstəkar, klassik, tembr*

## Giriş

Musiqi alətləri hər bir millətin, hər bir dövlətin mədəniyyət tarixinin mühüm tərkib hissəsini təşkil edir və hər bir dövrdə insanın musiqi tərbiyəsi, dünyagörüşü və əqidəsi, estetik zövq və ideallarının formalaşmasında böyük rol oynamışdır və indi də bu vəzifəyə xidmət edir. Xalqın bədii təfəkkür formalarından biri hesab olunan və fəal iştirakı ilə yaradılan musiqi alətlərinin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir.

Musiqi alətləri musiqi sənəti ilə bir vəhdət təşkil edib ilk əvvəllər ibtidai formada olmuş, bəşər cəmiyyətinin sonrakı mərhələlərində mədəniyyətin, musiqi və ifaçılıq sənətinin, istehsal texnikasının artması ilə əlaqədar olaraq böyük bir inkişaf yolu keçmişdir. Musiqi alətlərinin yaranması haqqında bir sıra fərziyyələr mövcuddur. İlk əvvəl onların siqnal alətləri rolunu oynamağı və ibtidai insanın əmək prosesi ilə sıx bağlı olduğu ehtimal edilirdi. Lakin arxeoloji qazıntılar nəticəsində insan cəmiyyətinin erkən inkişaf dövründə yalnız estetik musiqi funksiyalarını yerinə yetirmək üçün nəzərdə tutulan musiqi alətlərinin mövcudluğu sübut edilmişdir. Təbii ki, musiqi alətləri təkmilləşərək ilkin formasını dəyişmiş, bəziləri yeni estetik və sosial-ictimai tələblərə cavab vermədiyi üçün məişətdən çıxmış, nəticədə yeni musiqi alətləri ilə əvəzlənmişdir. [1, s.5]

## Əsas təhlil

Nəfəs alətləri ən qədim musiqi alətləri sırasındadır. Bu alətlərin "əcdadları" hələ Paleolit adlanan daş dövründən tapılmışdır. Bu alətlər sırasında özünəməxsusluğu ilə seçilən və böyük inkişaf tarixinə malik truba aləti (italyan dilindən trombe, fransızca trompette, alman dilindən trompete, ingilis dilində trumpet) – mis nəfəs alətləri içərisində ən yüksəs səslənməyə malik olan alətlərdən biridir. Parlaq tembrə malik truba aləti həm solo, həm simfonik orkestrin, həm də nəfəs və zərb alətləri orkestrinin tərkibində istifadə olunur, eyni zamanda jazz və digər musiqi janrları ilə sıx bağlıdır.

Qeyd etməliyik ki, ingilis sözü olan "trompet" ilk dəfə 14-cü əsrin sonlarında istifadə edilmişdir. Bu söz köhnə fransızca "trompette"dən gəlir, trompe sözünün kiçildilməsidir. Truba mənasını daşıyan "tromp"sözü ilk dəfə ingilis dilində 1300-cü ildə istifadə olunub.

Qədim dövrlərdən bəri təbii truba siqnal aləti kimi istifadə olunur və təxminən XVII əsrdən orkestrin bir hissəsinə çevrilir. Klapanlar mexanizminin icadı ilə truba tam xromatik səssırası əldə

etdi və artıq XIX əsrin ortalarından etibarən klassik musiqinin şedevr əsərlərini ifa edən bərabər hüquqlu bir alətə çevrildi.

Truba ən qədim musiqi alətlərindən biridir. Bu növ alətlərin xatırlanması təxminən eramızdan əvvəl 3600-cü ilə aiddir. Truba Qədim Misirdə, Qədim Yunanıstanda, Qədim Çində bir çox sivilizasiyalarda mövcud olub, siqnal aləti kimi istifadə olunurdu və bir çox yüzilliklər boyu XVII əsrə qədər truba bu rolu oynayırdı. Antik dövrdə bir bütöv metal parçasından alətlər hazırlamaq texnologiyası mövcud idi. Orta dövr truba ifaçıları ordunun ən mütləq üzvləri idilər, yalnız onlar bir siqnaldan istifadə edərək komandirin əmrini ordunun məsafədə yerləşən digər hissələrinə sürətlə çatdıra bilirdilər.

Trubada ifaçılıq sənəti "elit" hesab olunurdu və bunu yalnız xüsusi istedada malik insanlara öyrədirdilər. Sülh dövründə truba bayram yürüşlərində, cəngavər turnirlərində səslənirdi. Orta əsrlər və intibah dövrünün sonunda truba musiqi alətlərinin istehsalı üçün yeni texnologiyalar meydana çıxdı və bundan sonra onlara xeyli maraq artdı. Barokko dövründə isə bəstəkarlar artıq truba alətini orkestrin tərkibində istifadə etməyə başladılar. Trubanın yuxarı registrində üfürmə ilə diatonik səssırasını ifa etmək sənətinə malik olan virtuoz ifaçılar meydana çıxdı. Bu dövrü haqlı olaraq "təbii trubanın qızıl dövrü" adlandırmaq olar. Klassisizmin və romantizmin yaranması ilə təbii trubalar bu dövr üçün səciyyəvi olan melodik xətti ifa edə bilmədiyi üçün orkestrdə öz təsirlərini itirərək ikinci plana keçirlər. Onlar yalnız əsas motivin səssırasını ifa etmək üçün okestrdə istifadə olunurdu: fanfar və çağırış xarakterli motivlərdə, kulminasiya anının daha kəskin səslənməsi üçün.

Ümumilikdə bu qəbildən olan nəfəs aləti truba, kifayət qədər uzun idi (müasir xromatik trubadan təxminən iki dəfə uzun idi) və sıx miqyaslı alətlər sırasına daxil edilirdi, hansı ki, çox səy göstərmədən geniş səs diapazonunu əldə etmək olurdu. Eyni zamanda, əgər ehtiyac yaranarsa müxtəlif kökləri birləşdirərək, demək olar ki, tam bir xromatik səssırasına nail olmaq olar. Bununla belə, klassik dövrün bəstəkarları bu alətin imkanlarından tam istifadə etmədilər. Çünki, bu dövrdə truba və həmçinin zərb alətləri orkestrlərdə çox vaxt bəzi fərdi səsləri və çətin olmayan müəyyən melodik dönmələri səsləndirmək üçün lazım olurdu. Truba alətinin səsi sərbəst və yüksək dəqiqliklə ifadə olunurdu, ona görə də məhdud sayda köməkçi texnikanın istifadəsi ilə belə, bu alətdə cəld ifa etmək mümkün idi. Sonrakı dövrlərdə orkestrin gücü artdıqca, trubaların sayı da 2-dən 12-yə qədər arta bilərdi. Misal üçün: R.Waqner'in "Tangeyzer" operasından "Cəngavərlərin marşı".

İfaçılar təbii trubanın əsas məhdudiyyətlərini dərk etdikcə, onu təkmilləşdirmək və yeni dizayn həllərini tətbiq etmək üçün müxtəlif cəhdlər edirdilər ki, bu da alətin inkişafı və indiki görkəminin alması prosesində mühüm rol oynamışdır.

Bu gün truba aləti solo alət kimi simfonik və nəfəs alətləri orkestrində, həmçinin jazz, funk, ska kimi janrlarda geniş istifadə olunur.Truba alətinin repertuar seçimi məsələsinə gəldikdə isə, demək olar ki, bu alət üçün bir sıra bəstəkarlar əsərlər yazıblar: J.Haydn, L.V.Bethoven, B.Bartok, Y.Brahms, Q.Maler, R.Strauss, İ.F.Stravinski, P.İ.Çaykovski, P.Hindemith və b.

Bu alətin iştirakı ilə yazılan orkestr əsərlərini nəzərdən keçirsək isə, Vyana klassik məktəbinin banisi J.Haydn'ın 1796-cı ildə yazdığı konsertin adını çəkməliyik. J.Haydn'ın trompet və orkestr üçün yazdığı konsert ilk dəfə klapan mexanizmli truba alətinin yaradıcısı və virtuoz ifaçısı Anton Weidinger üçün nəzərdə tutulub və nadir nümunələrdən biridir. Qeyd etməliyik ki, klapan mexanizmli truba əvvəllər mövcud olan ənənəvi trubalardan fərqli olaraq ifaçıya xromatik səssırasından istifadə etməyə imkan verir. Bu əsər trompet alətinə böyük dəyər verən müəllifin ən məşhur konsertləri sırasına daxildir. Avstriyalı ifaçı A.Weidinger bu konserti ilk dəfə dörd il sonra, 1800-cü ildə ifa etdi.Konsert üç hissədən ibarətdir ("Allegro", "Andante", "Finale-Allegro"). Birinci hissə sonata formasında, ikinci hissə üçhissəli formada, üçüncü hissə final rondo formasında yazılmışdır.

Digər Avstriya bəstəkarı J.Hummel də trompet və orkestr üçün 1803-cü ildə üçhissədən ibarət konsert yazır. Haydn və Hummel'in bu alət üçün yazdıqları konsert janrında nümunələr nadir nümunələr sırasına daxil olunur. Rus bəstəkarlarından Rodion Şedrin yaradıcılığında da nəfəs alətlərinə xüsusi maraq müşahidə olunur. O, trompet və orkestr üçün konsert janrına amerikalı dirijor Lorin Maazel'in sifarişi ilə 1994-cü ildə müraciət etmişdir. Əsər təxmini 25 dəqiqə ərzində davam edir, üç hissədən ibarətdir.

Avropa mənşəli nəfəs alətlərində ifaçılıq sənəti bir əsrə yaxın tarixə malikdir. 1921-ci ildə Bakıda Konservatoriyanın təşkilindən sonra tədrisdə nəfəs alətlərinə böyük yer verilmiş, yüksək savadlı mütəxəssislər vətənimizə dəvət edilmiş, bu alətlərdə ifaçılığın geniş vüsət alması üçün mühüm işlər görülmüşdür. Peşəkar musiqi təhsilinin fundamental bazası olan konservatoriya ilə yanaşı, yeni açılan musiqi məktəbləri, türk musiqi texnikumunda da nəfəs alətlərinin tədrisinə böyük diqqət yetirilirdi. Qeyd etməliyik ki, Azərbaycanın ilk professional təhsil almış bəstəkarı Asəf Zeynallı musiqi texnikumunda nəfəs alətləri şöbəsində oxumuş, 1926-cı ildə konservatoriyanın truba sinfini bitirmiş, bir qədər sonra isə bəstəkarlıq üzrə təhsilini davam etdirmişdir. Eləcə də istedadlı və tanınmış Azərbaycan bəstəkarı Soltan Hacıbəyov da 1937-ci ildə Bakı Musiqi texnikumuna daxil olaraq, A.Kolpinskinin truba sinfində oxumuşdur və buranı bitirdikdən sonra isə konservatoriyanın bəstəkarlıq şöbəsinə daxil olmuşdur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında da tədricən bu alətə böyük önəm verilir. Lakin ilk illərdə truba üçün əsasən köçürmə və işləmələr yaranır.Bu sahədə yaranan ilk tədris vəsaitlərindən V.Anaşkin və T.Şahverdiyev tərəfindən tərtib olunan Azərbaycan bəstəkarlarının işləmə və köçürmələrini qeyd etmək lazımdır. Vəsaitdə Azərbaycan bəstəkarlarının əsərləri Avropa aləti olan trubanın ifaçılıq xüsusiyyətləri ilə uyğunlaşdırılıb. Burada Q.Qarayev, S.Rüstəmov, S.Ələsgərov, M.Adil Gərayın əsərlərinə geniş yer verilir. Nisbətən iri həcmli əsərlər sırasında Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu" operaları, eləcə də "Arşın mal alan" musiqili komediyasından bir neçə vokal nömrənin truba və piano üçün işləmələrinin verilməsi də çox təqdirəlayiqdir. Bundan başqa, Yaşar Qarayusifli, Rəsul Rəsulov, Hidayət Hüseynov da bu istiqamətdə səmərəli işlər görmüş və bu alət üçün köçürmə və işləmələrin yaradılmasında çox məhsuldar bir musiqiçi sayılırlar.

Azərbaycan bəstəkarlarının yaradıcılığında trompet aləti üçün yazılmış əsərlər say etibarilə az olsa da, bu sahədə bir çox maraqlı əsərlər diqqəti cəlb edir. Nəzərə çatdıraq ki, bir çox Azərbaycan bəstəkarlarının əsərlərində əsas mövzunun ifadəsində trompet alətinin səs imkanlarından və ifaçılıq xüsusiyyətlərindən də geniş şəkildə istifadə edilir. Belə ki, trompet alətinin səslənişi əsərin əsas ideyasının ifadəçisi rolunu daşıyır. Eyni zamanda müxtəlif janrlara aid olan bir çox əsərlərin trompet aləti üçün köçürülməsi və işləmələri də bu alətin ifa repertuarını da zənginləşdirir.

Trompet üçün əsər yazmış Azərbaycan bəstəkarları arasında ilk olaraq görkəmli bəstəkar Musa Mirzəyevin adını çəkməliyik. 1933-2016-cı illərdə yaşayıb-yaratmış Musa Mirzəyev yaradıcılığının ən məhsuldar dövrlərindən biri 60-cı illər olmuşdur. Məhz bu dövrdə bəstəkarın yaradıcılıq maraqları genişlənir və əsərləri əhatə etdiyi mövzu, obraz dairəsi baxımından, janr müxtəlifliyi etibarilə daha da zənginləşir. Bu illərdə orkestr musiqisinə olan marağını, sevgisini və bu sahədə peşəkar ustad olduğunu sübut edən bir sıra əsərlər yaranır. Bunların sırasında truba və orkestr üçün yazdığı "Poema-noktürn" (1965) pyesinin adını çəkmək olar. Bu əsərdə klassik formaya və milli musiqi duyumuna uyğun şəkildə formalaşan dramaturji xətt müşahidə olunur.

Bəstəkarın 1965-ci ildə yazdığı və o dövrün musiqisini təcəssüm etdirən ən gözəl əsərləri sırasında "Poema-noktürn" özünəməxsus yerlərdən birini tutur. Pyes truba (in B) və orkestr üçün, üçhissəli quruluşda yazılmışdır. Bu pyesin quruluşunun maraqlı, özünəməxsus dramaturji inkişaf xətti var. Faktiki olaraq eyni bir mövzu üç dəfə olaraq təkrarlanır. Lakin hər birində müxtəlif

cür istifadəsi təqdim olunur. Eyni mövzu birinci hissədə və reprizdə trubanın partiyasında verilir. Orta hissədə isə orkestrin partiyasında keçir. Birinci hissədə inkişafın dinamikasını trubanın mövzusu, orta hissədə isə trubada keçən improvizə xarakterli mövzu, kulminasiyada baş verən simlilərin unison aşağı hərəkəti təşkil edir. Əsərdə Musa Mirzəyev üslubuna xas olan romantik cizgilərin klassik ənənələr ilə vəhdət təşkil etməsi, uzlaşmasının bir daha şahidi olduq. Poema-noktürn özünəməxsus musiqi dili, eyni zamanda orkestrinin möhtəşəmliyi, buradakı tembr rəngarənliyi və müxtəlifliyi ilə seçilərək M.Mirzəyev yaradıcılığında xüsusi yerlərdən birini təşkil edir.

M.Mirzəyevlə eyni dövrdə yaşayıb-yaratmış,Azərbaycanmusiqi mədəniyyəti sahəsində misilsiz xidmətləri olan istedadlı bəstəkar və trompet ifaçısı Əziz Əzizli də orkestrin sirlərinə çox yaxşı bələd olan musiqiçi idi. Yaradıcılığı boyu müxtəlif janrlara müraciət edən bəstəkar , hələ tələbəlik illərində sevimli aləti trompet üçün bir sıra pyeslərin müəllifi olmuşdur. Eyni zamanda bu alət üçün iki konsertin müəllifidir.

Diplom işi kimi təqdim etdiyi trompet və simfonik orkestr üçün konsert Azərbaycan klassik musiqisində bu janrda yazılan ilk nümunədir. Dövlət imtahanında həmin əsərin ilk ifaçısı da Ə.Əzizli olmuşdur. O, bu konserti 1965-ci ildə yazmışdır. Üç hissədən ibarət olan konsertin hər bir hissəsində milli ənənələrə, xalq mahnılarına, muğamlarımıza istinadı müşahidə edirik. "*Qeyd edək ki,Əziz Əzizli hər bir yaratdığı əsər üzərində saatlarla çalışırdı. O, həm bəstəkar, həm ifaçı baxımından əsərə yanaşırdı* " [4, s.16]. Ə.Əzizli yaradıcılığında trompet və simfonik orkestr üçün 2 saylı konsert isə 1987-ci ildə bəstələnmişdir. Hər iki əsərdə müəllif ənənəvi konsert janrına xas üsluba sadiq qalmış və trompet alətinin özünəməxsus ifa xüsusiyyətlərini əsas götürmüşdür.

Nəfəs alətlərinə öz yaradıcılığında xüsusi yer verən bəstəkarlardan biri də görkəmli bəstəkarımız, Azərbaycan Respublikasının xalq artisti Tofiq Bakıxanovdur. O, fleyta və orkestr üçün iki konsertin, fleyta və piano üçün üç sonatanın, qoboy və simli alətlər orkestri üçün iki, trompet və simfonik orkestr üçün bir konsertin müəllifidir. Trompet və simfonik orkestr üçün konserti 1994-cü ildə yazmışdır. Yaradıcılıq üslubuna xas olaraq bu konsertində də xalq musiqisi ilə dərin bağlılıq, müasir yazı texnikası ilə üzvi vəhdət yaratmışdır. Konsert üç hissəlidir. İlk dəfə solist qismində trompet partiyasını Hidayət Hüseynov ifa etmişdir.

**Nəticə**

Beləliklə, truba aləti qədim zamanlardan bu günədək keçdiyi inkişaf yolu ilə yalnız texniki baxımdan deyil, musiqi mədəniyyətindəki funksional mövqeyi ilə də diqqətəlayiqdir. Klassik və müasir dövr bəstəkarlarının əsərlərində bu alət həm tembr, həm texniki imkan baxımından əvəzsiz bir vasitə kimi çıxış edir. Azərbaycanda da bu alət üçün yazılan əsərlərin artması, trubanın ifaçılıq və yaradıcılıq sahəsində aparıcı mövqeyini təsdiq edir. Bu proses həm musiqi təhsili, həm də yaradıcı irs baxımından yüksək dəyərləndirilməli və gələcək nəsillərə ötürülməlidir.

## ƏDƏBİYYAT

1. Axundzadə R.Y. Truba alətinin yaranma tarixi, quruluşu və ifaçılıq xüsusiyyətlərinə dair. Xarici ölkə bəstəkarlarının əsərlərindən ibarət truba və fortepiano üçün köçürmələr. Dərs vəsaiti. //Bakı,Mütərcim,-2021.-84 s.

2.Axundzadə R.Y. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Trompet sinfinin tarixi. //Dərs vəsaiti. Bakı,Mütərcim,-2014.-96 s.

3. Həsənova Ş. Musa Mirzəyev // Bakı-2008

4.Qarayusifli Y. Azərbaycan musiqisində trompet və simfonik orkestr üçün konsert janrının yaradıcısı bəstəkar və ifaçı Əziz Əzizli // Bakı-2011

5.Зейналлы О. Основные тенденции-развития исполнительства на духовых инструментах европейского типа в азербайджане. // Баку-2018

***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının**
**"Nəfəs və zərb alətləri" kafedrasının dosenti,**
**Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi**
**E-mail:rufat440644@gmail.com***

**Rufat Akhundzade**

## ON THE HISTORY OF THE TRUMPET INSTRUMENT AND ITS USE IN COMPOSER CREATIVITY

The article explores the historical development, technical capabilities, and functional role of the trumpet as one of the most prominent wind instruments. It highlights the trumpet's early use as a signaling device and its transformation into a chromatic instrument with the invention of valve mechanisms, enabling its integration into classical music. Particular attention is given to the evolution of trumpet performance and composition in Azerbaijani musical culture, including both original works and adaptations. Compositions by Musa Mirzayev, Aziz Azizli, and Tofiq Bakikhanov exemplify the trumpet's expressive and technical potential. The study emphasizes the importance of preserving and transmitting the artistic and pedagogical heritage related to the trumpet to future generations.

**Keywords:** *Trumpet, music, composer, classical, timbre*

**Руфаат Акхундзаде**

## ОБ ИСТОРИИ ТРУБНОГО ИНСТРУМЕНТА И ЕГО ИСПОЛЬЗОВАНИИ В ТВОРЧЕСТВЕ КОМПОЗИТОРОВ

В статье рассматриваются этапы исторического развития, технические возможности и функциональная роль трубы (трумпета) как одного из наиболее значимых духовых музыкальных инструментов. Отмечается её использование в древности в качестве сигнального инструмента и последующее усовершенствование с внедрением клапанного механизма, что обеспечило хроматическое звучание и расширило её применение в классической музыке. В центре внимания находится развитие трубного исполнительства в музыкальной культуре Азербайджана, анализируются оригинальные сочинения и переложения для этого инструмента. Произведения таких композиторов, как Муса Мирзаев, Азиз Азизли и Тофик Бакыханов, подчёркивают выразительные и технические возможности трубы. Работа подчёркивает важность сохранения и передачи молодому поколению накопленного творческого наследия, связанного с этим инструментом.

**Ключевые слова:** *труба, музыка, композитор, классическая музыка, тембр*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 17.06.2025**
**Son daxilolma tarixi:03.07.2025**